TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASININ
SEÇKİ MÜŞAHİDƏ MİSSİYASI
Növbədənkənar parlament seçkiləri, Azərbaycan Respublikası
1 sentyabr 2024-cü il

BƏYANAT

Azərbaycan Respublikası Milli Məclisinin (Parlament) dəvəti ilə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Seçki Müşahidə Missiyası (*bundan sonra Missiya*) 1 sentyabr 2024-cü il tarixində Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar parlament seçkilərinin qısamüddətli müşahidəsini həyata keçirmişdir. Missiya Qazaxıstan və Türkiyə parlamentlərinin üzvlərindən və nümayəndələrindən, eləcə də TÜRKPA Katibliyinin nümayəndələrindən ibarət olmuşdur.

1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkiləri Azərbaycan Respublikasının bütün suveren ərazilərində keçirilmiş ilk parlament seçkiləri olmuşdur.

Azərbaycan Respublikasında parlament seçkiləri, əsasən, Konstitusiya və Seçki Məcəlləsi, o cümlədən Mərkəzi Seçki Komissiyasının (MSK) qərarları ilə tənzimlənir. Seçki Məcəlləsi təfərrüatlı olub, bütün seçkiləri və referendumları tənzimləyir. Azərbaycan insan hüquqları və seçkilərlə bağlı əsas beynəlxalq və regional sənədlərə tərəfdir.

Azərbaycanda parlament 125 üzvdən ibarət və birpalatalıdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatları 125 birmandatlı seçki dairəsində sadə səs çoxluğu ilə 5 il müddətinə seçilirlər.

Seçkilər MSK, 125 Dairə Seçki Komissiyası (DSK) və daimi əsasda fəaliyyət göstərən 6343 Məntəqə Seçki Komissiyası (MnSK) tərəfindən idarə edilmişdir. Həmçinin müvəqqəti əsasda əlavə MnSK-lar yaradılmışdır. Parlament seçkilərində ölkə xaricində səsvermə keçirilmir.

Bütün seçki komissiyaları daimi orqanlardır. MSK, DSK və MnSK-ların 5 il müddətinə seçilən/təyin edilən müvafiq olaraq 18, 9 və 6 üzvü var. MSK-nın bütün üzvləri parlament tərəfindən seçilir. MSK DSK-ların üzvlərini təyin edir, onlar isə öz növbələrində, müvafiq MnSK-ların üzvlərini təyin edirlər. Bütün seçki komissiyalarında deputatları parlamentdə çoxluq təşkil edən siyasi partiyanı, deputatları parlamentdə azlıq təşkil edən siyasi partiyaları və müstəqil namizədlər kimi seçilmiş deputatları təmsil edən üzvlər üçün üç bərabər kvota ayrılmışdır. Seçki komissiyasının sədri deputatları parlamentdə çoxluq təşkil edən siyasi partiyanı, iki katibinin hər biri isə deputatları parlamentdə azlıq təşkil edən siyasi partiyaları və müstəqil namizədlər kimi seçilmiş deputatları təmsil edirlər.

MSK aşağı seçki komissiyalarının fəaliyyətinə rəhbərlik edərək, ümumən, seçki və referendumlara hazırlıq və həyata keçirilməsinə cavabdehdir. MSK seçki prosesinin bütün mərhələlərində əsas rol oynayır. MSK-nın 18 üzvündən 4-ü qadınlar olmuşdur.

DSK-lar öz ərazilərində seçki prosesini idarə edir və səsvermənin nəticələrini müəyyən edir. MnSK-lar seçici siyahılarını təsdiq edir və yeniləyir, səsverməni həyata keçirir və seçki məntəqələrində səsvermənin nəticələrini müəyyən edir.

Seçici qeydiyyatı passivdir. Məhkəmə qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər istisna olmaqla, azı 18 yaşı olan Azərbaycan Respublikası vətəndaşlarının səs vermək hüququ var. Azərbaycanda azı 5 il daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin də səs vermək hüququ var. MSK-nın məlumatına əsasən, seçici siyahılarına seçkilərdə iştirak etmək hüququna malik 6 421 960 seçici daxil edilmişdir.

Seçkilərdə iştirak etmək hüququna malik Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmək hüququ var. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, ağır cinayətlərə görə məhkum olunmuş, icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan, məhkəmə qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş, məhkəmənin hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər, din xadimləri parlament seçkilərində namizəd ola bilməzlər.

Namizədlər siyasi partiyalar, siyasi partiyaların blokları, seçicilər qrupu tərəfindən və ya öz təşəbbüsü ilə irəli sürülə bilər. Namizəd irəli sürüldüyü seçki dairəsi ərazisindən toplanmış azı 450 seçici imzası ilə dəstəklənməlidir. Bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər. Bir şəxs yalnız bir seçki dairəsində namizəd ola bilər. Namizəd seçki gününə 10 gün qalanadək namizədliyini geri götürə bilər. Qeydiyyat mərhələsinin sonunadək növbədənkənar parlament seçkiləri üçün 1052 namizəd qeydə alınmışdır.

Seçkiqabağı təşviqat seçki günündən 23 gün əvvəl başlayır və səsvermənin başlamasına 24 saat qalmış bitir. Seçki günü və ondan əvvəlki gün təşviqat qadağandır.

Qanunvericilik bütün iştirakçılar üçün bərabər kampaniya imkanlarını təmin edir. Seçkiqabağı təşviqat qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən kütləvi informasiya vasitələri, kütləvi tədbirlər və çap olunmuş, audiovizual və digər təşviqat materiallarının yayılması yolu ilə aparıla bilər. Çap və audiovizual təşviqat materialları bu materialları sifariş edən və hazırlayan təşkilatlar, tiraj və buraxılış tarixi barədə məlumatı əks etdirməlidir.

Qanunvericilik ifadə azadlığı, media azadlığı və məlumat əldə etmək hüququna təminat verir. Media bütün namizədlər üçün bərabər şəraiti təmin etməlidir.

Qanunvericilik vətəndaşlar və beynəlxalq müşahidəçilər tərəfindən müşahidə aparılmasını təmin edir. Yerli müşahidəçilər müşahidəni öz təşəbbüsləri ilə və ya qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının və seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının təşəbbüsü əsasında apara bilərlər. Beynəlxalq müşahidəçilər, eləcə də ölkənin bütün ərazisində müşahidə aparmaq üçün müraciət etmiş yerli müşahidəçilər MSK tərəfindən qeydə alınır. DSK-lar öz ərazilərindəki seçki məntəqələrində müşahidə aparmaq niyyətində olan yerli müşahidəçiləri qeydə alır.

Müşahidə proqramı çərçivəsində TÜRKPA Missiyası Azərbaycan Respublikasının MSK-nın sədri Məzahir Pənahov və Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Samir Şərifov ilə görüşlər keçirmişdir. Görüşlər zamanı Missiyaya növbədənkənar parlament seçkilərinə hazırlıqlara dair məlumat verilmişdir.

Seçki günü Missiya Bakı, Şamaxı və Qobustanda seçki məntəqələrini ziyarət etmişdir. Missiya üzvləri seçki məntəqələrinin açılışından səslərin sayılmasınadək səsvermə prosesini müşahidə etmişdir. Missiya seçkilərin gedişatını izləmiş, yerində seçicilər, yerli müşahidəçilər və seçki məntəqələri rəsmiləri ilə söhbət aparmışdır.

Seçki günü səsvermə məntəqələri saat 08:00-dan 19:00-dək açıq olmuşdur. Seçki günü dinc və nizamlı keçmişdir. Missiya müşahidə aparılmış seçki məntəqələrində ümumi səsvermə prosesini şəffaf və yaxşı təşkil edilmiş kimi səciyyələndirərək, müsbət qiymətləndirmişdir. Missiya müşahidə aparılmış seçki məntəqələrində yüksək səviyyəli şəffaflığın təmin olunmasına töhfə vermiş yerli müşahidəçilərin mövcudluğunu qeyd edir. MSK-nın ilkin məlumatına görə, seçkilər üçün seçici fəallığı təqribən 37,27% təşkil etmişdir.

Missiya seçki idarəetmə orqanlarının resurslarla yaxşı təmin olunduğunu və seçkilərə hazırlıqları səmərəli həyata keçirdiyini qeyd edir. Missiya seçki prosesinin iştirakçılarına təlimlərin keçirilməsi və proses haqqında ictimai maarifləndirmənin artırılması ilə bağlı MSK-nın işini təqdir edir.

Missiya seçki məntəqələrinin Brayl əlifbası ilə trafaretlər və panduslarla təchiz olunması, seçilmiş bir şəxsin yardımı ilə səsvermə və səsvermə günü seçki məntəqələrində səs verə bilməyən seçicilər üçün daşınan seçki qutuları daxil olmaqla, əlilliyi olan seçicilərin iştirakının asanlaşdırılması və seçki hüquqlarının təmin edilməsi üzrə tədbirləri müsbət qeyd edir.

Missiya Azərbaycanda seçkilərin beynəlxalq müşahidəsi üçün yaradılmış hüquqi və logistik şəraiti yüksək qiymətləndirir.

Missiya öz fəaliyyətində TÜRKPA-nın “Seçki müşahidəsi haqqında” Əsasnaməsinə və müvafiq beynəlxalq sənədlərə uyğun olaraq, obyektivlik, ədalət, şəffaflıq və qərəzsizlik prinsiplərinə riayət etmişdir.

Missiya Azərbaycan Respublikasında 1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkilərinin Azərbaycan Respublikasının milli qanunvericiliyinə və beynəlxalq seçki standartlarına uyğun keçirildiyi nəticəsinə gəlmişdir.